# FS Pool Master 2020
# pH (-) Düşürücü (toz)

## Təyinatı:

FS Pool Master 2020 hovuzlarda suyun pH səviyyəsini azaltmaq üçün istifadə olunur. Həftədə 1-2 dəfə pH səviyyəsini ölçmək və lazım olduqda 7.0 -7.4 səviyyəsinə uyğunlaşdırmaq tövsiyə olunur. 7.4-dən yuxarı pH selikli qişaların və dərinin qıcıqlanmasına səbəb olur, effektiv dezinfeksiyanın qarşısını alır.

## Üstünlüklər:

- Aktiv maddənin yüksək konsentrasiyası
- Tez həll olunur
- Köpük əmələ gətirmir
- Korroziyanın qarşısını alır
- Qənaətli

## İstifadəyə dair göstərişlər:

- 500 q preparat 5 litr suya əlavə olunur.
- Məhlulu hazırlamaq üçün qranulları suya əlavə edin (suyu qranullara əlavə etmək olmaz) və tam həll olunana qədər gözləyin.
- Alınan məhlulu hovuzun perimetri boyu suya əlavə olunur və suyu qarışdırmaq üçün filtr qurğusu işə salınır.

## Dozaj:

pH səviyyəsini 0,1 azaltmaq üçün hər 10 $m^3$ suya 100 q preparat tələb olunur.
Cod su üçün preparatın dozasını və ya tezliyini artırmaq lazımdır.

## Saxlama və təhlükəsizlik tədbirləri:

Quru, havalandırılan yerdə, sıx bağlı konteynerdə saxlayın. Qida və məişət əşyaları ilə birlikdə saxlamayın. Qələvilər, turşular və xlor tərkibli maddələrlə təmasdan çəkinin. Göz və dəri ilə təmasdan çəkinin. Göz və dəri ilə təmasda olduqda, bol su ilə yuyun və lazım olduqda həkimə müraciət edin.

## Məhsulun istifadəsi və saxlanması zamanı riayət edilməli olan qaydalar:

İstifadə etməzdən əvvəl etiket və təhlükəsizlik pasportunu oxuyun.
Həkim məsləhəti tələb olunarsa, etiketi və ya təhlükəsizlik pasportunu göstərin.
Başqa bir preparat və ya maddə ilə qarışdırmayın.
Preparatdan istifadə edərkən yemək yeməyin, içki içməyin və siqaret çəkməyin.
Toz/tüstü/qaz/duman/buxar/aerozollarla nəfəs almayın. Göz, dəri və ya paltarla təmasdan çəkinin.
Qoruyucu əlcəklər/qoruyucu geyimlər/göz/üz qoruyucularından istifadə edin.
Çirklənmiş paltarları çıxarın və yenidən istifadə etməzdən əvvəl yuyun.
Yalnız orijinal qablaşdırmada və yaxşı havalandırılan yerdə saxlayın. Qabı möhkəm bağlayın.
Qabı güclü təsirlərdən qoruyun. Qabı dik saxlayın.
İşçilər risk qiymətləndirməsində göstərilən nəzarət və qoruma tədbirlərini başa düşməli və onlara əməl etməlidirlər. İşçilər öyrədilməli, təlimatlandırılmalı, izlənilməli və adekvat, dəqiq məlumatlarla təmin edilməlidir.
Tərkibini/qablaşmanı beynəlxalq/milli/yerli qaydalara uyğun olaraq təhlükəli tullantı kimi atın.
Preparata heç vaxt su əlavə etməyin. Həmişə suya preparatı əlavə edin. Su ilə qarışdırılarkən az miqdarda əlavə edin və  yavaş-yavaş qarışdırın.
Həddindən artıq istiliyin əmələ gəlməsinin qarşısını almaq məqsədilə soyuq su istifadə edin.

## Piktoqram

